# Müdafiə Sənayesi Nazirliyi on il ərzində sürətli inkişaf yolu keçib





Müdafiə Sənayesi Nazirliyinin kollektivi bu qurumun yaradılmasının on illik yubileyi münasibətilə dekabrın 17-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə gül dəstələri düzülüb.

Sonra Müdafiə Sənayesi Nazirliyinin kollektivi Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

* * *

Müdafiə Sənayesi Nazirliyinin (MSN) yaradılmasının 10-cu ildönümü və nazirlik sistemi işçilərinin peşə bayramı günü münasibətilə dekabrın 17-də "Radioqurașdırma" zavodunda təntənəli mərasim keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə zavodun həyətində ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüblər.

Azərbaycanın dövlət himninin səsləndirilməsi ilə başlayan mərasimdə "Günəşli" yatağındakı 10 saylı dərin dəniz özülündə baş vermiş qəza zamanı həlak olan neftçilərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Peşə bayramı münasibətilə kollektivi təbrik edən müdafiə sənayesi naziri Yavər Camalov bildirib ki, son illər Azərbaycanın sürətli tərəqqisi hesabına ölkəmizin güclü iqtisadi və hərbi potensialı formalaşıb, cəmiyyət həyatının bütün sahələri inkişaf edib. Dövlətimizin hərbi qüdrəti durmadan artır.

Son dövrdə Azərbaycanda müdafiə sənayesi sahəsinin də uğurla inkişaf etdiyini qeyd edən nazir bildirib ki, buraxılan hərbi təyinatlı məhsulların çeşidi artıb, milli ordunun ən müasir silah növləri ilə təchiz edilməsi üçün zəruri addımlar atılıb.

Yavər Camalov qeyd edib ki, Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı nəticəsində bu gün peşə bayramını qeyd etdiyimiz Müdafiə Sənayesi Nazirliyində 10 il ərzində çox böyük uğurlar əldə olunub. Nazirliyin qarşısında qoyulmuş əsas məqsəd müəssisələrdə bərpa və yenidənqurma işlərinin aparılması, müasir növ silah və döyüş sursatlarının istehsalının mənimsənilməsi və onların seriyalı istehsalını təmin etmək üçün yeni istehsal sahələrinin yaradılması olub. Müdafiə təyinatlı məmulatların yaradılması və istehsalının mənimsənilməsi məqsədilə aparılan tikinti və yenidənqurma işləri nəticəsində 50-dən çox yeni istehsal sahəsi yaradılıb. Həmin obyektlərin əksəriyyətinin açılışında Prezident İlham Əliyev şəxsən iştirak edib, hərbi sənaye kompleksinin inkişafı ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini verib.

Diqqətə çatdırılıb ki, nazirliyin fəaliyyəti dövründə tabeli müəssisələrdə 450 addan çox mülki və ikili təyinatlı məhsulların istehsalı mənimsənilib. Mülki məhsulların yeni növlərinin yaradılması və istehsalı istiqamətində məqsədyönlü işlər davam etdirilib. Görülmüş tədbirlər nəticəsində mülki məhsulların istehsalı ildən-ilə artmaqdadır. Belə ki, mülki məhsulların istehsalı 2006-cı illə müqayisədə bu il 2,9 dəfə artıb. Cari ildə proqnoz tapşırığa 102,5 faiz əməl edilib. İstehsalı mənimsənilmiş mülki məhsullardan - əleyhqazı, 12 kalibrli ov tüfənglərini və onların patronlarını, müxtəlif tutumlu akkumulyator batareyalarını, müxtəlif tutumlu termosları, maskalanma torunu, müxtəlif laylı çap lövhələrini, plastik taraları, parket məmulatını, müxtəlif mebel dəstlərini, traktor tırtılını və s. göstərmək olar.

Qeyd edilib ki, nazirliyin müəssisələrində istehsal olunan müdafiə təyinatlı məmulatlarla yanaşı, mülki məhsulların da beynəlxalq sərgilərdə nümayişi və xarici bazarlarda tanıdılması istiqamətində işlər uğurla davam etdirilir. MSN-in müəssisələrində yaradılan və istehsal olunan müdafiə təyinatlı məmulatlar 2009-cu ildən etibarən 15 beynəlxalq sərgidə nümayiş etdirilib və böyük maraqla qarşılanıb. Nazirliyin qatıldığı sərgilərdə Azərbaycan brendi kimi nümayiş etdirilən məmulatların çeşidlərinin sayı artmaqda davam edir.

Nazir bildirib ki, hər il olduğu kimi, bu il də peşə bayramı ərəfəsində Prezident İlham Əliyev tərəfindən nazirliyin bir qrup əməkdaşının yüksək fəxri adlar və medallarla təltif olunması kollektivdə dərin minnətdarlıq və sonsuz ehtiram hissi doğurub. Dövlət başçısının diqqət və qayğısını daim hiss edən Müdafiə Sənayesi Nazirliyinin kollektivi doğma Azərbaycanın işıqlı gələcəyinin təminatçısı olan Prezident, Ali Baş Komandan İlham Əliyevin qarşıya qoyduğu vəzifəyə uyğun olaraq, Silahlı Qüvvələrimizin yeni növ silah, hərbi texnika və döyüş sursatı ilə təminatı üçün bundan sonra da bütün qüvvəsini səfərbər edəcək.

Digər çıxış edənlər də MSN-in on illik fəaliyyətini yüksək qiymətləndiriblər.

Sonra Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə təltif olunan əməkdaşlara mükafatlar təqdim edilib. Həmçinin MSN-in xidmətdə fərqlənən əməkdaşları nazir Yavər Camalovun əmri ilə təltif olunublar.

Sonda nazirliyin kollektivi adından Prezident İlham Əliyevə müraciət qəbul edilib.